**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ TƏHSİL QURUCULUĞUNDA HEYDƏR ƏLİYEVİN ROLU

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Mehriban Nağı qızı Sərdarova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdimedilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

pedaqogika üzrə fəlsəfə doktoru, professor
**İramin Namaz oğlu İsayev**

pedaqogika üzrə fəlsəfə doktoru , dosent
**Nigar Eldar qızı Zeynalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor
**İntiqam Hilal oğlu Cəbrayılov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan xalqının mifoloji dövrlərə aid milli-mənəvi irsindən ilk yazılı kitabınakimi düşüncəsində daşıdığı tərbiyə, əqli təhsil elementləri, intellektual və mənəvi-mədəni resursları sübut edir ki, Azərbaycan qədim və zəngin təhsil ənənələrinə malik ölkələrdən biri və birincilərindəndir. Təhsil tariximizin bütün mərhələlərində bu potensial bu və ya digər şəkildə öz əksini tapmışdır. Azərbaycan təhsil tarixinin görkəmli simaları, müxtəlif dövrlərdə yaşamış alimləri, müəllimləri, pedaqoji fikir ustaları varislik prinsipinə sədaqətlə və eyni zamanda ənənə və yeniliyin vəhdətini gözləməklə Azərbaycan təhsilini düşüncə, maarifləndirmə, bir sözlə, milli ideyalar şəklində gələcəyə ötürülməsini təmin etmişlər.

Müasir dövr Azərbaycan milli təhsilinin bünövrəsi kəsilməz tarix prinsipi ilə XX əsr təhsili hesab olunur. Buna görə də müasir dövr təhsil tarixini XX əsr Azərbaycan təhsil tarixi konteksində tədqiq edib öyrənmək məqsədəuyğundur.

XX əsr Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni inkişaf tarixində ən yüksək və eyni zamanda mürəkkəb bir mərhələdir. Bu mürəkkəblik Azərbaycanın üç ictimai-siyasi quruluşdan keçməsi ilə xarakterizə olunur və təbii ki, hər quruluşun öz məqsəd və vəzifələri təhsil sahəsində də özünü göstərmiş, təhsil sisteminin hər dəfə yenidən qurulması ilə nəticələnmişdir.

Milli dövlətçiliyimizdə xüsusi mərhələ olan 1918-1920-ci illər Azərbaycan xalqının əsrlərlə daşıdığı zəngin təhsil ideyalarının canlanması ilə xarakterizə olunur. Yetişən zamanda milli maarifçilik ideyalarına mühitin yaranması milli ruhlu yeni nəsil yetişdirməkistiqamətində bir sıra mühüm işlərin həyata keçirilməsində təzahür edir. Milli təhsili dövlət atributları ilə eyniyyətdə götürən Azərbaycan Demokratik Respublikasında ana dilində təhsil sisteminin yaradılması, anadilli məktəblər şəbəkəsinin genişləndirilməsi, milli universitetin – Bakı Dövlət Universitetinin yaradılması, milli pedaqoji kadrların hazırlanması, tədris proqramlarının milliləşdirilməsi, ana dilində dərsliklər və dərs vəsaitlərinin hazırlanması, hərbi təhsil, xaricdə təhsil və s. bu qəbildən atılan mü-

hüm addımlardır.

Lakin Sovet Rusiyasının milli dövlətimizi işğal etməsi bütün bu təşəbbüslərin yarımçıq qalmasına və Azərbayacan təhsil sistemində yeni mərhələnin başlanmasına səbəb oldu. Sovet ideologiyası mütərəqqi sosial ədalət ideyasına bürünmüş çar imperialist təfəkkürü idi. Təhsil tariximizdə bu ideologiya xalqın tarixinin saxtalaşdırılması, soy-kökünə biganə bir istiqamətdə siyasət yürüdülməsi ilə səciyyəvidir. Həmin siyasət 1970-ci illərə doğru onunla nəticələnmişdi ki, Azərbaycan ittifaq səviyyəsində istər sənaye, kənd təsərrüfatı, istərsə də təhsil sahəsində ən axırıncı yerlərdən birini tuturdu, ümumiyyətlə, respublika bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolunun tapılması, ölkənin bütün istiqamətlərdə inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yollarının işlənib hazırlanması, bütün sahələrdə köklü struktur dəyişikliklərinin aparılması, bilərəkdən süni şəkildə yaradılmış xalqın milli tərəqqisinə ciddi əngəl olan neqativ halların qətiyyətlə aradan qaldırılması Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi ilə sıx bağlıdır.

Məlum olduğu kimi, ötən il ölkəmizdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının yüzüncü ildönümü şərəfinə "Heydər Əliyev İli" elan edilmişdir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında göstərilir ki, öz xalqını zamanın mürəkkəb tarixi siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamız sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail oldu və bununla da tariximizin gedişatında və həyatımızın ahəngində köklü surətdə dəyişikliklər özünü göstərdi.[1]

[1] Əliyev, İ.H. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" élan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 sentyabr 2022. https://president.az/az/articles/view/57413

Gələcəyi elmi surətdə planlaşdırmaq, sabahkı günün tələbatını qabaqcadan görmək, ona şüurlu surətdə hazırlaşmağı bacarmaq o dövrdə Heydər Əliyevin təhsil siyasətinin də ən mühüm prioritetləri olmuşdur. Nəticədə azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər digər sahələrdə olduğu kimi, Azərbaycan təhsil tarixinin də parlaq səhifələridir. Vahid sovet xalqı ideologiyası ilə azərbaycanlıları hər vəchlə milli mənsubiyyətinə, soy-kökünə yadlaşdırmaq siyasəti mühitində tarixi yaddaşın bərpası istiqamətində Heydər Əliyevin atdığı qətiyyətli addımlar həm də milli təhsil dəyərlərinin canlanmasına xidmət göstərməklə özünüdərki və soy-kökə qayıdışı təmin etdi. Müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilən bu mərhələ Azərbaycan təhsil tarixinin ən zəngin dövrlərindən birini təşkil edir. *"XX əsrin sonunda müstəqil Azərbaycan Respublikasının böyük müəllim ordusuna, geniş təhsil şəbəkəsinə və yüksək təhsilə malik olması"*[2] təhsilşünas dövlət xadiminin Azərbaycan təhsil tarixinə xidmətlərindən biridir.

1990-cı illərin əvvəllərində yenicə müstəqillik qazanan dövlətin məlum həqiqətlərə görə düşdüyü böhranlı vəziyyətdə, təhsildə tənəzzül proseslərinin güclənidiyi vaxtda "*Heydər Əliyevin ikinci dəfə hakimiyyətə xilaskar missiyası ilə qayıdışı, cəmiyyətin bütün potensialının mənəvi-psixoloji, sosial-iqtisadi mühitin sağlamlaşdırılmasına yönəldilməsi istiqamətində fəaliyyəti 70-80-ci illərdəki fəaliyyətinin bilavasitə davamı, özü də yüksək formada davamı idi*".[3]

Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin ikinci dönəmi özünün bilavasitə iştirakı ilə milli təhsil quruculuğu istiqamətində əsaslı və kordinal islahatların keçirilməsinin, gələcək inkişafın istiqamətlərinin müəyyənləşdirilməsinin təmin edilməsi dövrüdür. Onun dövlətçilik fəaliyyətində müəyyənləşdirdiyi və addım-addım həyata keçirdiyi təhsil siyasəti, yaratdığı təhsil

---

[2] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı:Azərnəşr, c. 17. 2005. 528 s.

[3] Rüstəmov, F.A. Heydər Əliyev və Azərbaycanda elmi-pedaqoji kadr hazırlığı// - Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, - 2008. Xüsusi buraxılış, - s.139-146

dəyərləri, konseptual əsaslarını təyin etdiyi təhsil strategiyası və bunun müstəqil dövlətimizin aparıcı istiqamətlərindən birinə çevrilməsi sübut edir ki, Ümummilli Liderin təhsil sahəsində fəaliyyəti sıradan bir dövlət başçısının ölkəsinin təhsil sisteminin inkişafının qayğısına qalmasından qeyri-adi dərəcədə fərqlənən bir hadisədir. Bu səbəblərdəndir ki, hər iki rəhbərlik dövründə ölkədə mövcud reallıqlara baxmayaraq təhsili düşdüyü vəziyyətdən çıxarıb tezliklə ən üst düzəndə inkişafına nail olmaq qabiliyyəti məhz Heydər Əliyevə məxsusdur.

Dövlətimizin inkişafının indiki mərhələsində Azərbaycan təhsilinin qarşısında da yeni vəzifələr qoyulur, bu isə öz növbəsində təhsildən müasirləşməyi, qlobal çağırışlara cavab verməyi tələb edir. Təhsilin məzmunu yeniləşdirilərkən, sirr deyil ki, islahat xatirinə islahat hallarına da rast gəlinir. Habelə innovasiya adı ilə prosesə daxil olan yeniliklər oturuşmuş təhsil ənənələrinə yad gəlir və nəticədə təhsili durğunluğa sürükləyə bilir. Bu halların aradan qaldırılması üçün təhsilinin inkişafında xüsusi rolu olan təhsilşünasların nəzəri və təcrübi irsini öyrənmək zərurəti yaranır.

Ona görə də bu gün müasir tələblərə cavab verən təhsilin yenidən Heydər Əliyev irsinə üz tutması tamamilə qanunauyğundur. İctimai quruluşun bir forması kimi o təhsil sistemi optimal hesab olunur ki, məqsədyönlü surətdə yaradıcı, qurucu təfəkkürə sahib dövlət rəhbərinin mövqeyi baza rolunu oynasın, müxtəlif vasitələrlə cəmiyyətin üzvlərinin həyat idealının, intellektual hədəflərinin, estetik zövqünün, milli-əxlaqi prinsiplərinin düzgün seçilməsində həyata keçirilsin.

Lakin tədqiqat işinin mövzu etibarı ilə aktuallığını yalnız bu dediyimiz səbəblə məhdudlaşdırmaq olmaz. Mövzunun aktuallığını şərtləndirən başqa mühüm səbəblərdən biri ölkəmizin təhsilinin Heydər Əliyev irsi kimi qorunmasını əsaslandırmaqdan ibarətdir. Belə ki, ölkəmizin davamlı inkişafının tələbləri ilə idarəetmədən başlayaraq maliyyələşdirilməyə qədər hər məsələdə təhsildə yeni çağırışlara uyğunlaşmağa səy göstərilir, bununla təhsil standartları da dəyişir. Bu da öz növbəsində təhsilin dövlətimizin milli təhlükəsizlik məsələsi olduğunu diqqətdə saxlamağı tələb edir. Heydər Əliyevin *"Müstəqilliyin əldə olunması nə qədər çə-*

*tindirsə, onun saxlanılması daimi, əbədi olması bundan da çətindir”*[4] fikrini təhsil sahəsinə transfer etsək, asanlıqla demək olar ki, milli təhsilin qorunması, daimi, əbədi olması onun quruculuğundan daha böyük səy, qüvvə tələb edir. Bu baxımdan təhsildə başlıca tendensiyaların düzgün seçilməsində Heydər Əliyevin təhsil ideyalarının rolunu artırmaq və onu nəzəri-mücərrəd fikir səviyyəsindən konkret problemlərin həllində mexanizm kimi reallaşdırmaq mövcud çətinlikləri aradan qaldıra bilər.

Digər tərəfdən, akademik Y.Mahmudovun təbirincə desək: “*Nə qədər zaman keçsə də, dövranın sərt və gözlənilməz sınaqları ilə millətimiz və dövlətimiz qarşılaşarsa, düşdüyümüz vəziyyətdən ən optimal çıxış yolunu yenə Heydər Əliyev irsində axtarıb tapacağıq*”.[5]

Yaxud akademik N.Cəfərovun eyni adlı məqaləsində qeyd etdiyi kimi, Heydər Əliyev irsini yenidən öyrənməliyik.[6]

Professor İ.Cəbrayılovun da haqlı olaraq vurğuladığı kimi: *“Heydər Əliyev həm də gələcəyin böyük şəxsiyyətidir. Onun ideyaları hər zaman aktualdır. Bu ideyalar həm də Azərbaycanın müstəqilliyinin, müstəqil dövlət kimi inkişafının təməl prinsipləridir”.*[7]

Bu baxımdan müstəqil dövlətçiliyimizin milli təhsilinin möhkəm özülünü yaratmış Ümummilli Liderimizin təhsil ideyaları, təhsil görüşləri, təhsil müddəaları dövlətçiliyimizin davamlı inkişafında tədqiq edilməsi və öyrənilməsi zəruri olan başlıca məxəzlərdəndir.

Bir tərəfdən də, bu gün təhsil problematikası ilə məşğul olan sahələr qarşısında Azərbaycan Respublikasının təhsil siyasətinin

---

[4] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 1997. 136 s.

[5] Mahmudov Y. Tariximizin dirçəliş konsepsiyasının müəllifi //Azərbaycan qəzeti. 2015, 9 may. s.1.

[6] Cəfərov N. Heydər Əliyev irsini yenidən öyrənməliyik. https://hafta.az/heyder-eliyev- irsini-yeniden-oyrenmeliyik-%E2%80%93-nizami-ceferov-336026-xeber.html

[7] Cəbrayılov İ. Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi: tarixi irsə konseptual baxış. Bakı: Azərbaycan məktəbi, 2023. № 1 (702), səh. 9-17.

tarixi təcrübəsini, xüsusiyyətlərini, nəticələrini müqayisəli tədqiq etmək, təklif və tövsiyələr hazırlamaq kimi mühüm vəzifələr durur. Heydər Əliyevin milli təhsil ideyalarının ana xəttini öyrənməklə tətbiq etmək başlıca vəzifələrdəndir.

Doğrudur, bu günə qədər Ümummilli Lider Heydər Əliyevin elmi-nəzəri müddəalarının və əməli fəaliyyətinin dissertasiya səviyyəsində Azərbaycan elmində araşdırılmasına müəyyən irəliləyişlər vardır. Lakin fəlsəfə doktoru elmi dərəcəsi və elmlər doktoru alimlik dərəcəsi almaq üçün Azərbaycan dilində təqdim olunmuş 23 dissertasiyadan yalnız dördü pedaqoji yönümlüdür. Üstəlik tədqiqat işlərinin mövzularının əhatə dairəsi də göstərir ki, Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi dövrdə milli təhsil quruculuğu ilə bağlı fəaliyyəti tədqiqat mövzusu seçilməyib.

Təqdim olunan dissertasiya işi bu vəzifələrin yerinə yetirilməsi üçün nəzəri və təcrübi istiqamətlərin öyrənilməsi baxımındanda mühüm aktuallıq kəsb edir.

Mövzunun aktuallığını təhsil tariximizin əlamətdar mərhələləri fonunda təhlil edilməsində, şübhəsiz, bir neçə məqsəd vardır.

*Əvvəla,* zəngin mütərəqqi ənənələrə malik təhsil tariximizdə milli təhsilin özünəməxsus yerini göstərmək, milli dövlətçiliyin inkişafında bu irsin yerini müəyyən etmək;

*İkincisi,* əcdadlarımızın, maarif fədailərinin milli təhsil ideyalarının, arzularının ilk dəfə müstəqil dövlətdə, ana dilində, dövlətimizin milli ideologiyasına uyğun prinsiplərlə təhsil sistemi qurmaqla həyata keçirilməsi konteksində dəyərini nəzərə çatdırmaq;

*Üçüncüsü,* böyük təhsilşünas Heydər Əliyevin təhsil tariximiz miqyasında xüsusi əhəmiyyətə malik olan nəzəri və təcrübi irsini, bütün zamanlarda yaradıcılıqla istifadə edilə biləcək təhsil ideyalarını milli təhsilin davamlı inkişafında konseptual əsas kimi götürməyin zərurətini təhlil edib əsaslandırmaq, bu mənəvi irsi qorumağın vacibliyini vurğulamaq.

Tədqiqat işi çoxsaylı mənbələrin məlumatlarının tənqidi təhlili əsasında aparılmışdır. Burada ilk növbədə sənədli mənbə-

lərdən – fərman, sərəncam, çıxış, nitq, məruzə, müsahibələrdən istifadə edilmişdir. Problemi öyrənmək üçün ən mühüm mənbələr tədqiqatımızın predmetinə uyğun təsnif edilməklə şərti olaraq üç qrupa ayrılmışdır.

1. Heydər Əliyevin bilavasitə özünün müəllifi olduğu əsərlər.

2. Heydər Əliyevə həsr edilmiş əsərlər, kitablar, dissertasiyalar, monoqrafiyalar.

3. Azərbaycan Respublikasının milli təhsilinin istiqamətlərinə, prioritetlərinə, başlıca prinsiplərinə həsr edilmiş əsərlər.

1. Birinci qrupa Heydər Əliyevin təhsilə aid fərmanları, sərəncamları, təhsillə bağlı keçirilən mərasimlərdə, təhsil işçiləri ilə görüşlərdə, müşavirələrdə, forumlardakı nitq və məruzələri aiddir. Çağdaş tariximizin obyektiv mənzərəsini əks etdirən Heydər Əliyevin ictimai-siyasi əhəmiyyətli zəngin görüşlərinin yer aldığı çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktublardan ibarət "Müstəqilliyimiz əbədidir" çoxcildliyi (1997-2013) onun təhsil irsinin öyrənilməsi ilə bağlı fundamental mənbə kimi çıxış edir.

2. İkinci qrupa Heydər Əliyevin həyat və ictimai-siyasi fəaliyyətinə, dövlətçilik baxışlarına, müəllifi olduğu ideologiya və strategiyaların təhlilinə həsr edilmiş əsərlər daxildir. Heydər Əliyevin ayrı-ayrı rakurslardan qiymətləndirilməyə geniş imkanlar açan çoxəhatəli zəngin irsinə onlarla kitablar həsr edilib. Bu dissertasiyanın yazılmasında onun çoxşaxəli fəaliyyətinə həsr edilmiş kitablarda, monoqrafiyalarda, dissertasiyalarda Ümummilli Liderin təhsil sahəsindəki siyasətini əks etdirən fəsil və bölmələrin pedaqoji aspektdən təhlilindən istifadə edilmişdir. Bu baxımdan Səlahəddin Xəlilovun, Misir Mərdanovun, Nizami Cəfərovun, İradə Hüseynovanın, Elmira Axundovanın, Mahirə Hüseynovanın, Fərrux Rüstəmovun, İntiqam Cəbrayılovun, Ədalət Qasımovun, Fərid Baxşəliyevin, Kəmalə Quliyevanın, Lalə Allahverdiyevanın və başqalarının əsərləri diqqəti cəlb edir.

3. Üçüncü qrupa, qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının milli təhsilinin inkişaf istiqamətlərinə, prioritetlərinə, başlıca prinsiplərinə həsr edilmiş əsərlər daxildir. M.C.Mərdanovun müəllif və həmmüəllifi olduğu Azərbaycan təhsilinin yeni inkişaf mərhələsini əhatə edən bir sıra kitab və monoqrafiyalar, habelə "Azərbaycan təh-

sil tarixi" çoxcildliyi bu qəbildəndir. H.H.Əhmədovun "Azərbaycan təhsilinin inkişaf strategiyası", S.S.Xəlilovun "Təhsil, Təlim, Tərbiyə" monoqrafiyaları, F.A.Rüstəmovun müəllifi olduğu monoqrafiya və dərsliklərin müəyyən fəsilləri, elmi məqalələri, C.M.Cəfərovun, A.D.Zamanovun Azərbaycan təhsili və müəllimi, ali məktəb elmi ilə bağlı elmi məqalələri problemin öyrənilməsində əhəmiyyətli mənbə kimi çıxış edir.

Qeyd etməliyik ki, Azərbaycan Respublikasında milli təhsilin inkişafı ilə bağlı yazılan əsərlərin hamısının üzərində dayanmaq təqdim olunan bu dissertasiyanın imkanı xaricində olduğundan biz yalnız Azərbaycan təhsilinin inkişafında xidmətləri olan müəlliflərdənbir qrupunu diqqət mərkəzinə gətirdik. Heydər Əliyevin milli təhsil irsinin xüsusi tədqiqat işi kimi araşdırılmasında və ümumiləşdirilməsində tədqiqatın predmetinə uyğun ədəbiyyatın təsnifatına daxilolan hər qrup üzrə ədəbiyyat diqqətlə öyrənilmişdir.

**Tədqiqatın obyektini** 1993-2003-cü illərdə Azərbaycanda millitəhsilin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikasının milli təhsil quruculuğunda Ümummilli Lider Heydər Əliyevin xidmətləri təşkil edir.

**Tədqiqatın məqsədi.** Heydər Əliyevin milli təhsilin inkişafı sahəsindəki xidmətlərini müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi öyrənilməsindən, milli təhsil quruculuğu haqqında fikir və mülahizələrinin araşdırılması və sistemləşdirilməsindən, milli təhsil ideyalarını təhlil etməkdən, Heydər Əliyevin təhsil irsinin milli-mənəvi qaynaqlarını üzə çıxarmaqdan, milli təhsildə azərbaycançılıq ideologiyasının mahiyyəti və məzmunu ilə bağlı fikirlərini ümumiləşdirməkdən, müəllifi olduğu milli təhsil strategiyasının Azərbaycan Respublikasının davamlı inkişafında yerini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

- milli təhsilin inkişaf mərhələlərinin ümumi təsnifatını verməklə Heydər Əliyevin milli təhsil dəyərlərini qoruması və inkişaf etdirməsi sahəsindəki fəaliyyətini üzə çıxarmaq;

- Ulu Öndərin istər sovet dönəmində, istərsə də müstəqillik illərində milli təhsilə münasibətini müqayisə etməklə eyniyyəti

üzə çıxarmaq;

- Heydər Əliyevin təhsil irsinin öyrənilməsinə və elmi təhlilinə həsr olunmuş tədqiqat əsərlərini sistemləşdirmək;
- Heydər Əliyevin milli təhsil siyasətini tədqiq etmək;
- dövlətçilik ideologiyasının formalaşdırılmasında Azərbaycan təhsili, məktəbi, müəllimi qarşısında qoyulan vəzifələrlə bağlı fəaliyyəti üzə çıxarmaq;
- milli təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərin, aparılan islahatların istiqamətlərini, perspektivlərini üzə çıxarmaq;
- müstəqillik illərində Azərbaycan Respublikasında təhsil pillələrinin movcud durumu konteksində inkişaf dinamikasını təhlil etmək;
- Heydər Əliyevin təhsil irsində milli-mənəvi dəyərlərin prioritetliyini təhlil etmək və Azərbaycan Respublikasının milli təhsil strategiyasının zəngin qaynaqlarını müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodları:** nəzəri, tarixi, tarixi-müqayisəli təhlil, problemlə əlaqəli tarixi, elmi pedaqoji, ictimai-siyasi materialların araşdırılması, sistemləşdirilməsi və ümumiləşdirilməsi.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- 1993-2003-cü illərdə Azərbaycanda milli təhsil quruculuğu prosesini təhsil tariximizin XX əsrin 70-ci illərindən başlayan Heydər Əliyev dövrü şərtləndirmişdir.
- Müstəqil Azərbaycan Respublikasının təhsil sistemi Heydər Əliyevin milli təhsil siyasəti əsasında qurulmuşdur.
- Heydər Əliyevin təhsil strategiyası fundamental bir konsepsiyadır.
- Milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi və mükəmməl elmi konsepsiyasının yaradılması, Azərbaycantəhsilinin bu əsasda qurulması Heydər Əliyevin milli təhsil strategiyasının tərkib hissələrindəndir.
- Heydər Əliyevin təhsil quruculuğunda əsaslandığı mənəvi-ideoloji güc mənbələri bu sistemin təməl əsaslarını təşkil edir.
- Ümummilli Liderin milli təhsil strategiyası ölkəmizdə

elm və təhsil problemlərini ümumi inkişaf və dövlət siyasəti ilə vəhdətdə götürməklə milli təhlükəsizliyin mühüm amillərindən biridir.

**Tədqiqatın elmi yeniliyi.** Heydər Əliyev siyasi fəaliyyəti boyunca Azərbaycan təhsil sisteminin yeni strateji istiqamətlərlə inkişafını təmin etmiş, təhsilin hər bir sferasının milli dövlətçilik prinsipləri əsasında yenidən qurulması ilə bağlı mühüm nəzəri fikirlər irəli sürməklə milli təhsil ideyalarının tətbiqi ilə bağlı sistemli fəaliyyət göstərmişdir. "Azərbaycan Respublikasında milli təhsil quruculuğunda Heydər Əliyevin rolu" mövzusu ilk dəfədirki, tərəfimizdən tədqiqat mövzusu kimi seçilməklə böyük təhsilşünas Heydər Əliyevin milli təhsil ideyalarının araşdırılması, milli təhsil quruculuğu fəaliyyətinin əsasında dayanan başlıca prinsiplərin təhlil edilməsi, dövlətçilik ideologiyasının formalaşdırılmasında Azərbaycan təhsili qarşısında qoyulan vəzifələrin təhlili dissertasiya işi səviyyəsində həyata keçirilir.

Tədqiqat işində ilk dəfə olaraq milli təhsil strategiyasının ideoloji qaynaq mənbələri tədqiqata cəlb olunmuşdur.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Müstəqil Azərbaycan Respublikasında milli təhsil quruculuğunu şərtləndirən amillərin müəyyənləşdirilməsi, böyük təhsilşünas Heydər Əliyevin milli təhsil strategiyasının məzmununa daxil olan məsələlərin sistemli öyrənilməsi, milli təhsil ideyalarının və görüşlərinin tədqiqi, milli ideologiyamızın əsas komponentlərindən olan mürəkkəb daxili struktura malik milli-mənəvi dəyərlərimizin dövlətimizin təhsil strategiyasının mühüm komponenti kimi təhlil edilməsi milli təhsil tariximizi zənginləşdirməklə gələcək tədqiqatçılar üçün elmi-nəzəri mənbə kimi çıxış edə bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat işi milli təhsil quruculuğunu əhatə edən tədris vəsaitlərinin yazılması üçün əhəmiyyətli ola bilər. Gəlinən nəticələrdən təhsilin bütün sferalarında təhsil alanlara "Heydər Əliyev dərsləri"nin keçirilməsində, Ulu Öndərin milli təhsil irsinin onlara öyrədilməsi işində elmi-pedaqoji tələblər əsasında istifadə edilə bilər. Tədqiqat işindən "Azərbaycan Milli Təhsil Ensiklopediyası"nın, "Heydər Əliyevin milli hərbi təhsil müddəaları" adlı dərs vəsaitinin, eləcə də "Müstəqil

Azərbaycan təhsilinin milli-mənəvi qaynaqları" kitabçasının tərtibində istifadə etmək mümkündür.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu və başlıca müddəaları ilə bağlı Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda məqalələr nəşr olunmuş, təhsilin aktual problemlərinə dair respublika və beynəlxalq miqyaslı simpoziumlarda, konfranslarda iyirmidən artıq məruzə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, 11 paraqraf, 3 bənd, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 14 səhifə, 28367 işarə, I fəsil – 28 səhifə, 56373 işarə (1.1. – 12 səhifə, 24645 işarə; 1.2. – 16 səhifə, 31728 işarə), II fəsil – 73 səhifə, 146459 işarə (2.1. – 7 səhifə, 14252 işarə; 2.2. – 9 səhifə, 18135 işarə; 2.3. – 12 səhifə, 23273 işarə; 2.4. – 5 səhifə, 9863 işarə; 2.5. – 5 səhifə, 10374 işarə; 2.6. – 23 səhifə, 47539 işarə; 2.7. – 12 səhifə, 22573 işarə), III fəsil – 23 səhifə, 45913 işarə (3.1. – 6 səhifə, 12463 işarə; 3.2. – 17 səhifə, 33450 işarə (3.2.1. – 6 səhifə, 11421 işarə; 3.2.2. – 4 səhifə, 7168 işarə; 3.2.3. – 7 səhifə, 14861 işarə), nəticə və təkliflər 5 səhifə, 8773 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı 12 səhifədən ibarət olmaqla dissertasiyanın ümumi həcmi 157 səhifə, 285885 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, müdafiəyə çıxarılan əsas müddəalar, nəzəri və praktik əhəmiyyəti aydınlaşdırılır, tədqiqat metodları, tətbiqi və aprobasiyası barədə qısa məlumat verilir.

**"Milli təhsilin inkişaf yolları"** adlı birinci fəslin *"Milli təhsil anlayışı və onun əsas xüsusiyyətləri"* adlı ilk paraqrafında müstəqil dövlətimizdə mövcud olan təhsilin inkişafını şərtləndirən sosial-siyasi zəmin şərh edilir və Azərbaycanda təhsilin təşkili və

inkişafının əsas mərhələlərini sistemləşdirməzdən əvvəl təhsil və milli təhsil anlayışlarının fərqi izah edilir. Milli təhsil anlayışını başa düşmək üçün onun məzmunu, məqsədi müəyyənləşdirilir. Göstərilir ki, milli təhsil sistemi hər bir ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişaf səviyyəsinə uyğun olan, habelə milli mentalitetə və dəyərlər sisteminə əsaslanan tədris planları və proqramların hazırlanmasını, habelə müvafiq tədris metodikasından istifadə olunmasını nəzərdə tutur.

İnkişaf etməkdə olan bir ölkə kimi, Azərbaycan Respublikasının milli təhsil sisteminin müasir dünyanın təhsil çağırışlarına uyğunluğu, onun başlıca istiqamətlərini prioritet yol seçməsi bu paraqrafda aydınlaşdırılır.

Azərbaycan Respublikasının milli təhsil sistemi dedikdə, dünyəvi elmlərin əsaslarını, azərbaycançılıq ideologiyasını – milli-mənəvi və ümumbəşəri mütərəqqi dəyərləri, milli əxlaq normalarını, təbiət, İslam mədəniyyətini öz məzmununda əhatə edən, demokratik prinsiplərə, insan hüquq və haqlarının qorunması tələblərinə, cəmiyyətin və insanın inkişafına xidmət göstərən təhsil sistemi başa düşülür.

Dissertasiyanın bu paraqrqfında zəngin mütərəqqi ənənələrə malik təhsil tariximizin bütün mərhələləri fonunda milli təhsilin milli dövlətçiliyin inkişafında yeri müəyyən edilir. XX əsrdə milli təhsilimizin keçdiyi yolun qısa xülasəsi verilir. Azərbaycan milli təhsil tarixinin 1970-ci ildən başlayaraq bu günü də ehtiva edən dövrü Heydər Əliyev mərhələsi adlandırılır.

Yarım əsrdən artıq davam edən bu mərhələnin Ümummilli Lider Heydər Əliyevin adı ilə adlandırılması onun tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlarla, o dövrdə milli ruhun canlanmasına xidmət göstərməsi, özünüdərkə və soy-kökə qayıdışı təmin etməsi ilə əlaqələndirilir, faktlarla əsaslandırılır. Professor A.Zamanovun haqlı olaraq qeyd etdiyi kimi, "*Heydər Əliyevin siyasi hakimiyyət dövrü Azərbaycan dünyasında ardıcıl olaraq bir neçə nəslin tale yolundan keçib*".[8] Son onillərdə res-

[8] Zamanov A.D. Ön söz //Heydər Əliyev irsi və müasir Azərbaycanın inkişafının bəzi məsələləri. Bakı: ADPU, 2023. 158 s.

publikamızda cərəyan edən dinamik proseslərin canlı şahidi və iştirakçılarının, kamillik çağına çatanlardan gənclik və yeniyetməlik yaşında olanlara qədər bütöv bir nəslin həyat və fəaliyyət yoluna nəzər salanda "*Ümummilli Liderin ideya-siyasi irsinin, yaradıcı fəaliyyətinin silinməz izlərini görürük*".[9]

Fəslin *"Milli təhsilin inkişafında Heydər Əliyev mərhələsi"* adlı ikinci paraqrafında Heydər Əliyevin milli təhsilin inkişafı ilə bağlı ölçüyəgəlməz fəaliyyəti təhsil tariximizdə yeni bir mərhələ kimi səciyyələndirilir.

1969-cu ildən başlayaraq Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi vaxtdan Azərbaycan təhsilinin yeni bir dövrünün başlaması və bu gün də həmin kursun davam etməsinə bu paraqrafda dövrə tarixi-fəlsəfi konteksdən verilən şərhlərin ümumiləşdirilməsi ilə aydınlıq gətirilir.

Heydər Əliyev mərhələsinin başlanması ilə xarakterizə olunan dövr milli şüurun canlanması, milli ideyaların dirçəlməsi və özünə qüvvə toplaması ilə təhsil tarixinə daxil olub. S.Xəlilova görə, Heydər Əliyevin müstəqil Azərbaycan Respublikası yaratmaq planı, apardığı məqsədyönlü quruculuq işlərinin bu hədəfə hesablanması sovetin siyasi gerçəkliyi şəraitində ağlasığmaz, fantastik bir ideya kimi görünə bilərdi. Lakin faktlar Heydər Əliyevin gördüyü bütün işlərin məhz bu məqsədə xidmət etdiyini təsdiqləyir. O illərdə Heydər Əliyevin atdığı addımlar o dərəcədə dəqiqdir ki, elə bil, yaxın gələcəkdə Azərbaycanı müstəqil görürdü. Həyata keçirdiyi bütün quruculuq işləri, o cümlədən təhsillə bağlı milli ideyaları canlandırması sanki planlı surətdə müstəqil Azərbaycan üçün görülürdü.[10]

Digər tərəfdən, dövlətçilik fəlsəfəsini ən ali şəkildə, fenomenal səviyyədə dərindən bilən bir şəxsiyyət kimi də ona aydın idi ki, tarix yolunun bütün məntəqələrində yaşıl işıqlar yanmır, müxtəlif xalqlar və millətlər istədiyi vaxt başını qaldırıb sözünü deyə bilməz. Ən böyük qabiliyyət zamanın verdiyi şansı düzgün

[9] Zamanov A.D. Ön söz //Heydər Əliyev irsi və müasir Azərbaycanın inkişafının bəzi məsələləri. Bakı: ADPU, 2023. 158 s.
[10] Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001. 358 s.

dəyərləndirməkdən ibarətdir. Və zamanın verdiyi bu şansı xalqı üçün yanan övladı millətinin gələcəyi üçün fədakarcasına yorulmadan, usanmadan ildırım sürəti ilə həyata keçirirdi. Heydər Əliyev, heç şübhəsiz ki, müstəqil Azərbaycanı görür, bu hədəfə gedən yolun xüsusən təhsilin yenidən qurulmasından keçdiyini, təbii sərvətlərin potensialını intellektual potensiala çevirməkdən ibarət olduğunu bilir, ilk növbədə intellektin, təhsil və elmi bilik səviyyəsinin yüksəldilməsini prioritet istiqamət seçirdi. Kadr potensialının səviyyəsinin inkişafın gələcəyini müəyyən etdiyini, aşağı səviyyəli kadrlarla çox yüksək amalları həyata keçirmək mümkün olmadığını bilən Ulu Öndər Azərbaycanın gələcəyi ilə bağlı milli maraqlarını ilk növbədə xalqın potensial imkanlarına söykənməklə gerçəkləşdirməyə başladı. Onun o zaman üçün islahat adlanan inkişaf proqramı, yaxud milli konsepsiyası elə hazırlanmışdı ki, gələcək məqsədləri milli ideyaların həyat qazanması ilə təzahür edirdi. Bu ideyaların yalnız milli kadrların gücü ilə həyata keçiriləcəyini bildiyindən onların istər respublika daxilində, istərsə də respublika xaricində hazırlanması Heydər Əliyev uzaqgörən və məqsədyönlü qərarlarının əsas tərkib hissəsi idi.

Birinci fəslin ikinci paraqrafında dövlətçilik şüurunun formalaşdırlması istiqamətində Ulu Öndərin 1969-cu ildən başlayan fəaliyyətinin ana xəttində duran ana dili və onun sosial-siyasi, ideoloji əhə miyyəti, dövlətçilikdəki mühüm yeri tarixi-konseptual, strateji tezislər şəklində ifadə edilir. Heydər Əliyevin dövlətçilik-milli ideologiya-anadili içiçəliyində ana dilinin dövlətçiliyin təməl cövhəri kimi çıxış etməsi xüsusi qeyd edilir. Rəhbərliyə başladığı ilk aylardan milli təhsil tariximizin zəngin ənənələrinin ötürücüləri, onların milli təhsil ideyaları barədə Bakı Dövlət Universitetinin İttifaq səviyyəsində keçirilən 50 illik yubileyində rus dilində deyil, cəsarətlə ana dilində bəyan etməsini geniş təhlil edən professor M.Hüseynova haqlı olaraq göstərir ki: "*Yubiley tədbirindəki bu çıxışı ilə Ümummilli Lider qarşıdakı fəaliyyət proqramında prioritet istiqamətləri açıqladı*".[11]

Təhsil tariximizdə Heydər Əliyev mərhələsinin ən bariz

---

[11] Hüseynova M.N. Missiya. Bakı: ADPU, 2019. 366 s.

göstəricilərindən biri azərbaycanlı gənclərin respublikadankənar, müstəqillik illərində isə bu ənənənin davamı olan xaricdə təhsilidir. Bu paraqrafda Heydər Əliyevin milli təhsil konsepsiyasının mühüm prioritetini təşkil edən, milli ali təhsil siyasətinin içində xüsusi yerə malik "Ölkəmizdən kənarda təhsil siyasəti"nin zəngin tarixi-konseptual, strateji əhəmiyyəti onun 31 avqust 1998-ci il çıxışına[12] əsasən bir neçə tezis şəklində nəzərdən keçirilir.

Beləliklə, bütün siyasi fəaliyyəti boyu Azərbaycan dövlətinə, dövlətçiliyinə, xalqına rəhbərlik edən Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı rolunun son yarım əsrdən artıq dövrünün I mərhələsinə bu paraqrafda qısa ekskurslar edilir, ümumiləşdirmələr aparılır, onun bu dövr fəaliyyətinin növbəti inkişaflar üçün milli zəmin olması zəngin faktlarla əsaslandırılır.

Dissertasiyanın **"Milli təhsil strategiyasının Azərbaycan Respublikasının dövlətçilik prinsipləri əsasında qurulması"** adlı ikinci fəsli özündə yeddi paraqrafı birləşdirir. Birinci paraqraf *"Müstəqilliyin ilk illərində təhsil sisteminin mövcud vəziyyəti və onun yenidən qurulmasında ilk addımlar"* adlanır. Bu paraqrafda 1988-ci ildən başlayaraq SSRİ-nin süqutuna yönəlmiş hadisələrin təhsil tariximizdə depressiya və tənəzzülə səbəb olan məqamları ümumi fonda təsvir olunur və yaddaşlarda yaşayan yaxın məktəb və təhsil tariximizdə bu mərhələ təhsilin cəmiyyətdə gərəksizlik duyğusu yaşadığı dövr kimi xarakterizə olunur. Zahirən beş-altı ili əhatə etməklə kiçik dönəm kimi görünsə də, daxilən böyük dağıdıcı təhsil hadisələri ilə yadda qalan bu dövrün xarakterik xüsusiyyəti: məktəblərin tənəzzülü, müəllimlərin təhsilə maliyyə ayrılmadığına görə dolanışıq üçün başqa ixtisaslara üz tutması, təhsil sistemindəki ali kadrların ölkədən getməsi, beyin köçünün kütləviləşməsi və bu kimi deqradasiyaya uğradan digər hadisələrin təhsildə on illərlə toplanmış zəngin mənəvi irslə yanaşı, həm də milli dəyərlərə ciddi zərbə vurması paraqrafda göstərilir. Məhz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə qısa

---

[12] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı:Azərnəşr, c. 17. 2005. 528 s.

müddət zində ölkənin dəyərsizlik girdabından çıxarılması, təhsildəki xaosun aradan qaldırılması, təhsildə yeni quruculuğa start verilməsi üçün zəmin hazırlanması, onun müstəqil respublikamızın quruculuğunun tərkib hissəsi kimi ahəngdar inkişaf etməyə başlaması faktlarla aydınlaşdırılır. Təhsilin milli dövlətçiliyimizin əsas prinsipləri ilə qurulması üçün onun məzmununun milliləşdirilməsi prosesində indiyə kimi təhsilin məzmununda rast gəlinməyən milli özünüifadənin bütün forma və vasitələrindən geniş istifadə olunması, milli şüurun yüksəlişinə xidmət edən məzmunla zənginləşdirilməsi, milli dəyərlərin tərbiyə edilməsinə təkan verən inkişaf konsepsiyasının müəyyənləşdirilməsi ilə səciyyələnən bu dövr təhsil tariximizdə müstəqil dövlətimizin milli təhsil quruculuğu kimi xarakterizə olunur. Bu paraqrafda İslahat üzrə milli proqrama gətirən təhsil hadisələrinin xronikası, starateji yükü dövlətçilik prizmasından nəzərdən keçirilir, Proqramın əsas prinsiplərinin təhsilşünas dövlət rəhbəri Heydər Əliyevin milli təhsil müddəalarından təşkil olunduğu aydınlaşdırılır. Professor C.Cəfərovun göstərdiyi kimi, onun milli təhsil siyasətinin *"əsas mahiyyətini isə təhsil sistemində islahatların təkamül yolu ilə getməsi, dünya təhsil sisteminin Azərbaycanın milli xüsusiyyətləri ilə əlaqələnməsi məsələləri təşkil edir".*[13]

İkinci fəslin *"Məktəbəqədər təhsilin milli təhsil sistemində yeri"* adlı ikinci paraqrafında milli təhsil sistemində məktəbəqədər təhsilin yeri müəyyənləşir. Səmərəli, davamlı təhsilin ilk pilləsində duran məktəbəqədər təhsilin varislik prinsipini, dialektik bağlılığı təmin etməsində başlıca şərtlərdən biri olduğunu fikirlərində bildirən Heydər Əliyevin 1994-cü ildən başlayaraq uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması ilə bağlı bir sıra mühüm tədbirlərinin həyata keçirilməsinə göstəriş verməsi "Uşaqların Beynəlxalq televiziya və radio günü" münasibətilə keçirilən ənənəvi bayramlarında iştirak edərək Azərbaycan uşaqları ilə bağlı dövlət siyasətinin başlıca prinsiplərini ifadə etməsi təhlil edilir. Bu fikirləri araşdırdıqca Ümummilli Liderin

[13] Cəfərov C.M. Heydər Əliyev və Azərbaycan təhsilinin milliləşdirilməsi strategiyası//Xalq qəzeti. 2017, 13 may

*"Azərbaycanın parlaq gələcəyini təmin edəcək"*[14] uşaqlarla əlaqədar milli-mənəvi idealları aydınlaşır. 1999-2000-ci illərdə İslahat Proqramının aparılmasının birinci mərhələsində bütün təhsil pillələri üzrə ən zəruri hüquqi-normativ aktları ehtiva edən 150-dən artıq təsdiq olunmuş sənədin 10-a qədərini məktəbəqədər təhsil pilləsini əhatə edən əsasnamələrin təşkil etməsi öz növbəsində məktəbəqədər təhsil siyasətinin yerini aydınlaşdırır.

Fəslin *"Ümumtəhsil məktəblərinin milliləşdirilməsinin əsas istiqamətləri"* adlı üçüncü paraqrafında ümumi təhsilin Azərbaycan Respublikasının təhsil sisteminin əsas bünövrəsini, təməlini təşkil etməsi Ümummilli Liderin fikir və çıxışları əsasında təhlil edilir. Heydər Əliyevə görə, hər bir insan üçün həyat anadan doğulduğu gündən başlayırsa, insanın şüurlu həyatı, gələcəyi, cəmiyyətdə özünə yer tutması orta məktəbdən başlayır. Təsadüfi deyildir ki, təhsilin məzmununun milli ideologiyanın prinsiplərinə əsasən tərtib olunmasıilə bağlı Heydər Əliyevin tövsiyələri, göstərişləri əsasən ümumi orta təhsili əhatə edir. Onun istər təhsil işçiləri ilə görüşlərində, bilik günündə məktəb açılışlarında iştirakında çıxış və nitqlərini təhlil edəndə təhsilin milliləşdirilməsi ilə bağlı konseptual fikirlərinin əsasən ümumi təhsillə bağlı olduğu üzə çıxır.

Heydər Əliyevin ümumi təhsilin inkişafı ilə əlaqədar geniş, coxcəhətli fəaliyyətində iki istiqamət özünü göstərir. Bunlardan birincisi ümumi təhsilin milli ideologiya ilə əlaqələndirilməsi istiqamətində görülən işlərdir, təhsilin məzmununun milliləşdirilməsi ilə bağlı onun nəzəri görüşlərini əhatə edir. Ümumi təhsilin inkişafının ikinci istiqaməti onun məzmununun müəyyənləşdirilməsində, həyata keçirilməsində, ahəngdar inkişaf etməsində Heydər Əliyevin qəbul etdiyi qərarlar, verdiyi sərəncam və fərmanlarla bağlıdır. Məktəblilərin dərsliklərlə pulsuz təminatı, fənn proqramlarının məzmununun milli ideyalarla zənginləşdirilməsi, Azərbaycan tarixi və ədəbiyyatı dərsliklərinin milli ideologiyanın prinsipləri əsasında tərtib olunması, ümumtəhsil məktəblərinin tikilməsi,

---

[14] Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] . Bakı:Azərnəşr, c. 31. 2010. 512 s

təmiri ilə bağlı fəaliyyət bu paraqrafda şərh olunur.

İkinci fəslin *"Peşə təhsilinin mövcud vəziyyəti, inkişafının təmin edilməsi istiqamətində görülən işlər"* adlı dördüncü paraqrafında müstəqilliyin ilk illərində ölkəmizdə peşə təhsilinin mövcud vəziyyəti təhlil edilir, göstərilir ki, həmin dövrdə bütün təhsil sahələrinin içində ən ağır vəziyyət peşə təhsil sistemində özünü göstərmişdir. Belə ki, fabrik-zavodların fəaliyyətinin dayandırılması, işğal edilmiş rayonların peşə təhsil məktəblərinin talan edilməsi, bir sıra peşə məktəblərinin qaçqınların yaşayış məskəninə çevrilməsi, əksəriyyətinin maddi-texniki bazasının dağıdılması, ixtisaslı kadrlar hazırlayan təcrübəli mühəndis-pedaqoji işçilərin bu və ya digər səbəbdən təhsil müəssisələrindən uzaqlaşması peşə təhsil sisteminin iflic vəziyyətinə düşməyinə gətirib çıxarması bu paraqrafda faktlar və rəqəmlərin köməyi ilə göstərilmişdir. Müstəqillik illərində "Peşə təhsilinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 avqust 1996-cı il tarixli 116 nömrəli qərarı ilə peşə təhsilinin mövcudvəziyyətində dönüş nöqtəsi yaratması, 1999-cu il qəbul edilən "İslahat Proqramı"nda isə peşə təhsili pilləsinin inkişaf istiqamətlərinin öz əksini tapması Heydər Əliyevin peşə təhsilinin inkişafı ilə bağlı milli prioritetləri kimi izah edilmişdir. "Proqram"da peşə məktəbi və peşə liseylərində iqtisadi sahələr üzrə kadr hazırlanması üçün təsdiq olunan peşələrin siyahısına 30-u yeni olmaqla 230 peşə və ixtisas daxil edilməsi, 2003-2004-cü illərdə 4082 mühəndis-pedaqoji işçisi və 22194 təhsilalanı olan 110 texniki-peşə məktəbinin fəaliyyət göstərməsi bu paraqrafda Heydər Əliyevin peşə təhsilinin inkişafı üçün yaratdığı münbit şəraitin nəticəsi kimi qiymətləndirilir.

Fəslin *"Orta ixtisas təhsilinin milli təhsil prioritetləri istiqamətində inkişafı"* adlı beşinci paraqrafında dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatındakı köklü dəyişikliklərlə əlaqədar – bazar iqtisadiyyatının prinsiplərinə uyğun milli iqtisadiyyatın formalaşması və inkişafını reallaşdıran istehsal sahələrinin yaranması, xüsusilə də qeyri-istehsal sahələrində işçi qüvvəsinə ehtiyac yaranması, kiçik sahibkarlığın inkişafı ilə bağlı orta ixtisas təhsilli mütəxəssislərə tələbat və digər məsələlərin "İslahat Proqramı"nda bir sıra müddəalarda

əksini tapması və bu vəzifələrin həyata keçirilməsi istiqamətində ilkin tədbirlərdən bəhs olunur. “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli 349 nömrəli Fərmanda bu məsələlərdən irəli gələn məqsəd və vəzifələrin həlli üçün orta ixtisas təhsilinin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılmasından bu pararaqrafda əks edilir. Göstərilir ki, bu Fərman nəticəsində ölkədə bir sıra texnikumların birləşdirilərək onların maddi-texniki bazası, pedaqoji kadr potensialı əsasında yeni tipli orta ixtisas təhsili müəssisələri – kolleclər və təhsil kompleksləri yaradılması Heydər Əliyevin orta ixtisas təhsili siyasətinin təzahürlərindəndir.

Fəslin altıncı *“Ali təhsil sisteminin milli təhsil prioritetlərinə uyğun yenidən qurulması”* adlı altıncı paraqrafında müstəqillik illərində ali təhsil sistemində dəyişiklik onların şəbəkəsinin genişlənməsi, müstəqilləşməsi, yeni ictimai-iqtisadi şəraitin tələblərinə uyğun şəkildə formalaşdırılmasına nail olunması, müstəqil (özəl) ali məktəblər yaradılması, onların səviyyəsini yüksəltmək istiqamətində həyata keçirilən tədbirlərlə, inteqrasiya və qloballaşma proseslərinin təsiri ilə Boloniya prosesinə qoşulması ilə xarakterizə olunan başlıca istiqamətlər şərh olunur.

Paraqrafda Heydər Əliyevin ali təhsil siyasəti onun ali məktəb sahəsi ilə bağlı zəngin fikir və ideyalarının, təcrübi irsinin şərhi ilə təqdim edilir. Burada təhsilşünas dövlət başçısının 13 iyun 2000-ci il tarixli “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 349 nömrəli fərmanından irəli gələn məsələlər təhlil edilir. Dövlət ali təhsil siyasətində özəl ali təhsil məktəblərinin yerinə, roluna, onların milli dövlətçilik əhəmiyyətinə Heydər Əliyevin prinsipial mövqeyi əsasında baxılır. Müstəqillik illərində xaricdə təhsilin özünəməxsus xüsusiyyətləri, əcnəbilərin təhsili, ali təhsil elminə və digər məsələrə toxunulur və aydın olur ki, Heydər Əliyev irsində ali təhsil siyasəti milli strateji hədəf daşıyıcısı olmaqla özü ayrıca bir strategiya təşkil edir.

Bu paraqrafda Heydər Əliyevin ali təhsil siyasətində “Müəl-

lim hazırlığı ölkənin milli təhlükəsizlik məsələsi”[15] kimi nəzərdən keçirilməklə, təhsilin, müəllimin, məktəbin problemlərinin həllində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin də təhsilşünas rəhbə rin irsinin öyrənilməsi kimi təqdim edilir.

İkinci fəslin *“Heydər Əliyevin milli təhsil strategiyasında hərbi məktəblərin yeri”* adlı sonuncu – yeddinci paraqrafında Ümummilli Liderimizin zəngin irsində xüsusi diqqət çəkən məqamlardan biri milli dövlətçilik konsepsiyasının tərkib hissəsi olan milli hərbi kadrların yetişdirilməsi məqsədi ilə yaratdığı milli hərbi təhsil strategiyası iki istiqamətdə geniş təhlil edilir. 1970-ci ildən başlayan bu strategiyanın – azərbaycanlı gənclərin ali hərbi məktəblərə hazırlanması məqsədilə yaradılan Naxçıvanski adına hərbi məktəbin yetirmələrinin dövlətçilik tariximizdə yeri, milli hərbi təhsilin müstəqillik illərində inkişaf istiqamətləri, Ulu Öndərin bu sahə ilə bağlı strateji hədəfləri, əsaslandığı ideoloji mənbələr tədqiqat işi səviyyəsində öyrənilir.

Müstəqillik illərində ali hərbi kadrların iki istiqamətlə Azərbaycanda və dünyada xüsusi fərqlənən hərbi məktəblərdə ixtisaslarını artırmaları ilə yetişməsi və dövlətçiliyimizə xidmət edərək xüsusi izlər qoyması bu qənaətə gəlməyə imkan verir ki, bu uğur dövlətimizin hərbi təhsil siyasətinin Heydər Əliyev modelinin uğuru, zəfəridir. Bu paraqrafda Ümummilli Liderin Azərbaycan gəncliyinə müraciətində səsləndirdiyi milli hərbi tövsiyələr təhlil olunur.

Dissertasiyanın üçüncü fəsli **“Heydər Əliyev və təhsildə milli-mənəvi dəyərlərin prioritetliyi”** adlanır. Bu fəsil iki paraqraf, üç bəndi əhatə edir. *“Heydər Əliyev və Azərbaycan Respublikasının təhsil strategiyasının milli ideyalarla zənginləşdirilməsi”* adlı birinci paraqrafda Heydər Əliyevin bir-birini əvəzləyən nəsillərin milli ideologiyaya yiyələnməsinin ideoloji əsaslarını müəyyənləşdirdikləri təhsildən başlaması və bu işin düzgün təşkilinin dövlətçilik üçün həyati əhəmiyyətə malik strateji məsələ olması barədə fikirləri şərh edilir. Demokratiyanın yalnız ictimai-siyasi

---

[15] Cəfərov C.M. Müəllim hazırlığı ölkənin milli təhlükəsizlik məsələsidir // Azərbaycan müəllimi. 2017, 8 dekabr. s.9.

sabitliyin, qanunların aliliyinin hökm surdüyü şəraitdə yaranıb inkişaf edə bilməsi[16], onun da yolunun milli mənəviyyatdan keçdiyi, milli-mənəvi dəyərlərin dövlətin təhsil strategiyasının bütün prinsiplərinin, hətta ümumbəşəriliyə xidmət edən demokratiklik prinsipinin də təməli olduğu Heydər Əliyevin fikirlərində izlənilir: *"Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir".*[17]

Üçüncü fəslin birinci paraqrafında təhsildə milli-mənəvi dəyərlərin prioritetliyi Heydər Əliyevin ana dilinə, Azərbaycan tarixi və ədəbiyyatına münasibətində üzə çıxarılır, onların tədrisinin dövlətçilik əhəmiyyəti müəllimlərin qarşısına qoyduğu vəzifələrdə, akademik səviyyəli təhsil mütəxəssislərin bu işə cəlb edilməsini ifadə edən fikirlərində izlənilir. Bu paraqrafda göstərilir ki, təhsilimizi milli-mənəvi dəyərlərlə zənginləşdirilməsini, bununla bağlı ideyalarını əsasən azərbaycançılıq ideologiyası kontekstində inkişaf etdirən Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini milli ideologiyamızın strukturuna daxil etməklə mənəviyyat vədövlətçiliyin sintezindən çıxış edir. Üçüncü fəslin *"Heydər Əliyevin təhsil irsinin milli-mənəvi qaynaqları"* adlı ikinci paraqrafı üç benddən ibarətdir. *"Milli təhsildə islamı dəyərlər azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi"* adlı birinci bəndində İslam mədəniyyətinin demokratik prinsipləri, insan hüquq və haqlarının qorunması tələblərini gerçəkləşdirdiyi üçün milli təhsilin həm də islam mədəniyyətini ehtiva etməsi Ulu Öndərin dinimiz ilə bağlı çıxış və nitqlərində izlənilir. *"Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. Milli və dini adət-ənənələrimiz məhz bu prinsiplərə əsaslanır"*[18] kimi xeyli sayda fikirlərinin təhsil müddəası kimi çıxış etməsi göstərir ki, Heydər Əliyevə görə, İslam mədəniyyəti cəmiyyətin və insanın inkişafına xidmət göstərən milli təhsil sisteminin mühüm bir qoludur.

---

[16] Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı:Azərnəşr, c. 31. 2010. 512 s.
[17] Yenə orada.
[18] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı:Azərnəşr, c. 2. 1997. 601 s.

“*Kitabi-Dədə Qorqud”un milli təhsildə prioritet yeri”* adlı ikinci bənddə “Kitabi-Dədə Qorqud”un Heydər Əliyevin milli təhsil siyasətində azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi, qaynağı hesab edilməsi, dövlət/təhsil quruçuluğundakı yeri, milli təhsilin nəzəri-konseptual əsaslarının praktik daşıyıcısı olması və s. məsələlər tezis şəklində ümumiləşdirilib ifadə edilir. “Atatürk idealları Heydər Əliyevin ilham, örnək qayəsi kimi” adlı üçüncü bənddə Heydər Əliyevin təhsil quruculuğu fəaliyyətində, xüsusilə hərbi təhsil, dilin qorunması və s. Atatürk ideyaları işığında tarixiliklə müasirliyin vəhdətinə əsaslanaraq təhlil edilir.

Azərbaycan Respublikasının təhsil sisteminin təməllərindən biri olan türkçülük Heydər Əliyevin milli təhsil siyasətinin bir müddəasıdır. Bu təməlin formalaşmasında Ulu Öndərin, xüsusən də, Atatürk irsinə mühüm önəm verməsi akademik N.Cəfərovun fikrində də təsdiq olunur: “*Atatürkçülük istinad edə biləcəyimiz ən möhkəm ideya təməllərindəndir*”.[19] Bu bənddə Atatürkün milli ideyalarının ötürücülüyündə Heydər Əliyevin özünün də bəyan etdiyi kimi, xidmətləri diqqətdə saxlanılır, onun bu istiqamətdə zəngin irsinin araşdırılıb öyrənilməsinin əhəmiyyəti nəzərə alınıb, Heydər Əliyev irsi kimi qorunmasının vacibliyi vurğulanır.

Beləliklə, deyilənləri yekunlaşdıraraq belə bir **nəticəyə** gəlirik:

1. Qədim təhsil ənənələrinə malik Azərbaycan təhsil tarixinin müxtəlif dövrlərdə yaşamış görkəmli simaları varislik prinsipinə sədaqətlə və eyni zamanda ənənə və yeniliyin vəhdətini gözləməklə təhsilimizlə bağlı arzu və ideallarını milli ideyalar şəklində gələcəyə ötürülməsini təmin etmişlər.

2. XX əsrdə Azərbaycan təhsilinin sovet ideologiyasının saxtalaşdırma, soy-kökünə biganə istiqamətdə siyasətindən xilası, milli təhsil dəyərlərinin canlandırılması Heydər Əliyevin adı və geniş fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin 1969-cu il siyasi hakimiyyətə gəldiyi vaxtdan Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin tarixində bu gün də davam edən yeni bir dövr başlamışdır.

---

[19] Cəfərov N. Atatürkçülük istinad edə biləcəyimiz ən möhkəm ideya təməllərindəndir // Ayna. 2009. 12 sentyabr. s.6.

3. Heydər Əliyev əcdadlarımızdan miras qalan milli təhsil ideyalarını canlandırıb yaşatmaqla, inkişaf etdirməklə bütün siyasi fəaliyyəti boyu Azərbaycan dövlətinin, dövlətçiliyinin, xalqının yüksəlişinə xidmət etmişdir. Milli təhsil tariximizdə Heydər Əliyev dövrü onun I mərhələ siyasi fəaliyyətində ölkəmizin milli əsaslarla inkişafı, II mərhələdə isə həqiqi müstəqil dövlət kimi dünyaya təqdim edilməsində fövqəladə xidmətləri ilə xarakterizə edilir.

4. Müstəqilliyin ilk illərində Heydər Əliyevin təbirincə desək, həyatımızın ən gərəkli, ən mühüm sahəsi təhsilin deqradasiya uğradılmış vəziyyətdən xilası, ardıcıl, davamlı dövlət siyasəti ilə milli məqsədlər, mənafelər əsasında qurulması onun yorulmaz fəaliyyətinin nəticəsində mümkün olmuşdur.

5. Bütövlükdə 1993-2003-cü illərdə Heydər Əliyevin bilavasitə nəzarəti ilə quruculuq istiqamətində həyata keçirilən bir sıra proseslər müstəqil Azərbaycan Respublikasının milli maraqlarına cavab verən təhsil sisteminin fundamental əsasını təşkil edir.

6. Tədqiqatda göstərilir ki, 1993-1998-ci illərdə Heydər Əliyevin təhsillə bağlı müxtəlif səpkidə görüşlərində, tədbir və yığıncaqlarda, keçirdiyi müzakirələrdə, qurultayda və s. səsləndirdiyi fikirlərdə, çıxış və nitqində təhsil sisteminin qarşısında duran vəzifələrlə bağlı irəli sürdüyü müddəa və göstərişlər əslində Azərbaycanda milli təhsilin inkişaf perspektivlərinin strateji proqramı olmuş, ölkəmizin təhsil sistemində aparılacaq ciddi islahatların nəzəri əsaslarını təşkil etmişdir.

7. Heydər Əliyevin 30 mart 1998-ci il tarixli Sərəncamına əsasən Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması, bu sərəncam əsasında İslahat Proqramının hazırlanması və 1999-cu il 15 iyun tarixli qərarla bu sənədin təsdiq edilməsi ilə Azərbaycan Respublikasında milli təhsil quruculuğunun yeni mərhələyə daxil olması tədqiqat işində əsaslandırılır.

8. Azərbaycan təhsil sisteminin strateji hədəfləri və konseptual əsaslarını müəyyənləşdirən İslahat Proqramının təməl prinsiplərini təhsilşünas dövlət xadimi Heydər Əliyevin irəli sürdüyü milli təhsil müddəaları və ideyaları və təşkil edir.

9. İslahat Proqramında təhsilin hər bir pilləsi üzrə islahat-

ların aparılmasının mərhələləri, başlıca istiqamətləri, məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Sənəddə gözlənilən nəticələr və islahatın həyata keçirilməsi mexanizmi öz əksini tapmışdır.

10. Məktəbəqədər təhsilin milli təhsil siyasətinin əsas istiqamətinə çevrilməsi, həm də dövlət uşaq siyasətinin tərkib hissəsi kimi çıxış etməsi, başqa sözlə, iki böyük dövlət siyasətinin vəhdətindən ibarət olması Ulu Öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunan fəaliyyətdə təzahür edir.

11. Ümumi təhsilin cəmiyyətin inkişafında müstəsna yerini nəzərdə saxlayan Ulu Öndər bu təhsil pilləsində müəllimlərin və şagirdlərin məsuliyyətini vurğulamaqla, onların qarşısında mühüm vəzifələr qoyur. Heydər Əliyevin ümumi təhsil siyasəti əsasən ümumi orta təhsilin məzmununun dəqiqləşdirilməsində, milli ideologiyamızın başlıca prinsipləri ilə tərtibini prioritet kimi qarşıya qoymasında, ümumi təhsilin azərbaycançılıq ideologiyasına uyğunzənginləşdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin yeni dərsliklərin tərtibatı ilə həyata keçirilməyə başlamasında təzahür edir. Dissertasiyada ümumtəhsil məktəblərinin maddi-texniki bazasının zənginləşdirilməsi istiqamətində Heydər Əliyevin müvafiq fərman və sərəncamlarının xüsusi yeri faktlar və rəqəmlərlə göstərilir.

12. Azərbaycan Respublikasında peşə təhsilinin inkişafı istiqamətində görülən işlər onun yenidən təşkil olunması və yaradılmasında, strateji mövqeyinin müəyyənləşdirilməsində, texniki peşə təhsili sisteminin əsas istiqamətlərinin təyin edilməsində, statusunun müəyyənləşməsində, yeni sistemin tələblərinə uyğun kadr hazırlığı ilə bağlı siyahının tərtib edilməsində və s. təzahür edir.

13. Orta ixtisas təhsilinin milli təhsil prioritetləri istiqamətində qurulması yeni sosial-iqtisadi inkişaf ilə əlaqədar ilk növbədə orta ixtisas təhsilli mütəxəssislərin geniş şəbəkəsinin yaranmasında özünü göstərir. Tədqiqatda orta ixtisas təhsili şəbəkəsinin müasir infrastruktura uyğun müəyyənləşdirilməsi və inkişaf etdirilməsinin milli təhsil quruculuğunda vacib vəzifələrdən biri kimi qarşıya qoyulması faktlar əsasında təhlil edilir.

14. Tədqiqatda göstərilir ki, müstəqillik illərində ali təhsil sistemində dəyişiklik forma cəhətdən mütəxəssis hazırlığında əsa-

sən ikipilləli struktura keçiddə, universitetlərə muxtariyyət hüququnun verilməsində və s. təzahür edir. Məzmununa gəldikdə isə milli ali təhsil siyasəti beynəlxalq təcrübəyə uyğun olaraq bütün istiqamətlər üzrə yeni nəsil dövlət təhsil standartlarının hazırlanmasında, müəllim hazırlığı ilə bağlı pedaqoji təhsilin konsepsiya və strategiyasının müəyyənləşməsində, ali məktəb elminin inkişafında cəmiyyətin tələblərinə uyğun araşdırma sahələrinin seçilməsində, məzmununun milliləşməsində, həmçinin dərslik siyasətinin milli əsaslarla istiqamət götürməsində və s. özünü göstərir.

15. Müstəqillik illərində ali hərbi kadrların iki istiqamətlə Azərbaycanda və dünyada xüsusi fərqlənən hərbi məktəblərdə ixtisaslarını artırmaları ilə yetişməsi və dövlətçiliyimizə xidmət edərək xüsusi izlər qoyması bu qənaətə gəlməyə imkan verir ki, bu uğur dövlətimizin hərbi təhsil siyasətinin Heydər Əliyev modelinin uğuru, zəfəridir.

16. Təhsilimizin özünəməxsus milli identikliyi, başqa sözlə, azərbaycanlı ruhu ilə, milli ideallarla zənginləşdirilməsi Ulu ÖndərHeydər Əliyevin adı və bu sahədə geniş proqram əsaslı fəaliyyəti ilə simvolizə olunur.

Dissertasiyada aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

1. Azərbaycanın müstəqil dövlət kimi inkişafının təməl prinsiplərini özündə daşıyan aktual ideyalarına görə nəinki zəmanəsinin, eləcə də gələcəyin böyük şəxsiyyəti Ümummilli Lider Heydər Əliyevin təhsil irsinin araşdırılıb öyrənilməsi başlıca vəzifələrdəndir. Onun təhsil irsində mahiyyətlərin üzə çıxarılmasına əsaslanan monoqrafiya və dissertasiyalarının yazılması vacibdir.

2. Ali məktəblərin pedaqoji yönümlü fakültələrində tələbələrə Heydər Əliyevin milli təhsil irsinin öyrənilməsi ilə əlaqədar kurs işlərinin verilməsi məqsədəuyğundur. Böyük təhsilşünas rəhbərin müəllim və tələbələr qarşısında qoyduğu vəzifələrin dəyər kimi formalaşdırmasının hər bir zamanda xüsusi yeri var. Bu baxımdan Ulu Öndərin milli təhsil ideyalarını, təhsil müddəalarını, pedaqoji görüşlərini özündə daşıyan fikirlərin, nitq və çıxışların toplanılıb dərslik şəklində öyrənilməsi gərəklidir.

3. Hər bir təhsil sahəsi üzrə təhsilalanların Heydər Əliyevin milli təhsil müddəalarını öyrənməsi yaxşı olardı.

4. Heydər Əliyevin milli hərbi təhsil irsi "Heydər Əliyevin milli hərbi təhsil müddəaları" adlı dərs vəsaitində və ya müntəxabatında toplanıb hərbi təhsil və tarix üzrə ali təhsil alan tələbələrə xüsusi proqramla tədris edilməsi məqsədəuyğun olardı.

5. "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planında təhsil müəssisələrində 2023-cü ildə Ulu Öndərin həyat və quruculuq fəaliyyətinə dair dərslərin keçirilməsi nəzərdə tutulurdu, fikrimizcə, bu, bütün illərdə aktual olmalıdır.

Dissertasiyanın nəticələri aşağıdakı **məqalələ və tezislərdə** öz əksini tapmışdır:


1. Sərdarova M.N. Azərbaycanda ali təhsilin inkişafında Heydər Əliyevin rolu //Gənc tədqiqatçıların X Respublika konfransı, Bakı: BDU, 2010, s. 350-354.
2. Sərdarova M.N. Heydər Əliyevin Bəxtiyar Vahabzadənin elmi-pedaqoji irsinə münasibəti // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumu, Bakı:Qafqaz Universiteti, 13-15 dekabr 2012, s. 104-110.
3. Sərdarova M.N. Heydər Əliyevin təhsil irsində pedaqoji kadr hazırlığı məsələləri / Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, Bakı: Qafqaz Universiteti, 17-18 aprel 2015, s. 1272-1273.
4. Sərdarova M.N. İlim İrfan Yolu Olarak "Büyük İpek Yolu" // Uluslararası "İpek yolu"nun yükselişi ve Türk dünyasi bilgi şöleni. 2. cilt ipek yolu'nda bilgi ve siyaset, Ankara: Türk Yurdu Yayınları, 3-4 mart2016, s.31-40.
5. Sərdarova M.N. Azerbaycan'da Milli Eğitim Sisteminin Yapılandırması // Tarih ve Uygarlık İstanbul Dergisi, İstanbul: Doğu Kitap Evi, Sayı:9, Ekim 2016, s. 305-314
6. Sərdarova M.N. Azərbaycan Respublikasının milli təhsil quruculuğunda dini dəyərlərin yeri // "İslam həmrəyliyi elm və təhsildə: hədəflər və çağırışlar" Respublika elmi konfransının materialları, Bakı:ADPU, 14 aprel 2017, s. 226-232.
7. Sərdarova M.N. Heydər Əliyevin irsində dini-mənəvi dəyərlərin yeri // Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Bakı: QafqazUniversiteti, 05-06 may 2017, s. 920-921.
8. Sərdarova M.N. Azərbaycan Türkiyə təhsil əlaqələrində

Heydər Əliyevin rolu. "Azərbaycan-Türkiyə münasibətləri" II Beynəlxalq elmi simpozium, Bakı-Kastamonu, 12-14 oktyabr 2017, s.350-356.

9. Sərdarova M.N. Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiyasında Heydər Əliyevin rolu // "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda Respublika elmi konfransı, Lənkəran: LDU, 22-23 dekabr 2017, s. 160-162.

10. Sərdarova M.N. Azərbaycan Respublikası milli təhsilin davamlı inkişafında "Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının" rolu // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Təhsildə müasirlik və tarixilik" mövzusunda X Ümumrespublika konfransınını materialları, Bakı: Bakı Dövlət Universiteti, 2018, s. 98-100.

11. Sərdarova M.N. "Kitabi-Dədə Qorqud"un azərbaycançılıq ideologiyasında yeri // Dil və Ədəbiyyat, Bakı:BDU, 2018, №2(106), s.367-369.

12. Sərdarova M.N. "Heydər Əliyev və ali məktəb elmi" Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və GəncTədqiqatçıların XXII Respublika elmi konfransı materialları, c.2, Bakı: ADPU, 22-23 noyabr 2018, s.377-379.

13. Sərdarova M.N. Türkiyə Universitetlərinin Türk dünyası birliyinin oluşumundakı rolu. Karadeniz Uluslararası Multidisipliner Çalışmalar Kongresi, Giresun, 15-17 Mart, 2019. s. 41-43

14. Sərdarova M.N. "Novruz dəyərləri azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi" Uluslararası Nevruz Kültür ve Medeniyet Kongresi. Bakü, Azerbaycan, 18-22 Mart 2020, s. 64-65.

15. Sərdarova M.N. "Novruz dəyərləri azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi" Uluslararası Nevruz Kültür ve Medeniyet Kongresi. Bakü, Azerbaycan. 18-22 Mart 2020, s. 477-482.

16. Sərdarova M.N. R.Qafarlının "Heydər Əliyev və qədim Türk mifoloji-folklor irsi" əsəri tarixilik və müasirliyin vəhdəti kimi" Ziyalı işığında. Beynəlxalq İctimai və Mədəni Elmlər Konfransı AMEA Folklor İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan, Bakı, 15-16 İyul 2021, s. 58-73.

17. Sərdarova M.N. "Aşıq Ələsgər və azərbaycançılıq məfkurəsi" İn appreciation for her/his contribution and participation

in the Ashıg Alasgar - 200 years International Science, Culture and Education Conference "Turkic Music, Discourse & Folklore Traditions", ANAS Folklore Institute, Baku. December 9, 2021, s. 139-144

18. Sərdarova M.N. Məhməd Akif Ərsoy və Azərbaycançılıq ideyaları //Kabulünün 100. Yılında İstiklâl Marşı ve Milli Şairimiz Mehmed Âkif Ersoy Uluslararası Sempozyumu, Türkiye: Şanlıurfa, 12 mart 2021, s. 252-261.

19. Sərdarova M.N. "Heydər Əliyev irsində milli təhsilin davamlı inkişaf istiqa mətləri" // 2nd International Congress of Azerbaijan's Architect Heydar Aliyev İn The 99th Anniversary of His Birth. Baku:Azerbaijan, May 10, 2022, s. 124-126.

20. Sərdarova M.N. "Heydər Əliyev irsində Atatürk ideyaları Azərbaycançılıq dəyəri kimi"- Doğumunun 141. Yılında Atatürk 2. Uluslararası Sempozyumu. Ankara: Hacettepe Üniversitesi, 19 Mayıs 2022, s. 128-136.

21. Sərdarova M.N. "Heydər Əliyevin təhsil irsində Qarabağ azərbaycançılığın komponenti kimi" // Karabakh III. International Congress of Modern Studies in Social Sciences and Humanities "Year of Shusha. Azerbaijan: Karabagh, June 7-10 2022, s.117-120

22. Sərdarova M.N. "Heydər Əliyevin təhsil irsi müasir Azərbaycan təhsilinin konseptual əsası kimi". V Beynəlxalq Elm və Təhsildə innovativ texnologiyalar konfransı, 24-25 may 2022, Azərbaycan: Şamaxı, s. 94-97.

23. Sərdarova M.N. "Bəxtiyar Vahabzadə irsinin milli təhsildə yeri" // 4. International Bahtiyar Vahapzade Turkish World History, Culture and Literature Congress, June 03-04, 2022, Azerbaijan: Shaki, s.94-99.

24. Sərdarova M.N. "Tədqiqata əsaslanan təhsilin yeni məzmunlu təhsildə yeri" // ICSHSR 1st International Conference On Humanity and Social Sciences, Türkiye: İzmir, July 23-24, 2022, s.204-210.

25. Sərdarova M.N. "Heydər Əliyev irsində Qərbi Azərbaycan dövlətçilik strategiyası kimi" // Professor Həsən Mirzəyev - 95 Uluslararası Dil, Edebiyat ve Medeniyet Kongresi,

Bakı: ADPU, 29-30 Kasım 2022, s.211-222.

26. Sərdarova M.N. “The Strategy of the Unity of the Turkic World in the Legacy” // The International Symposium on Communication and Technology with its Philosophical Dimensions Uluslararası Felsefi Boyutlarıyla Teknoloji ve İletişim Sempozyumu FEBİTS. İstanbul: Marmara Üniversitesi, 14-15 Ocak 2023. s.91-96.

27. Sərdarova M.N. “Mehmet Akif Ersoy və milli təhsilimiz” // Kabulünün 102 Yılında İstiklâl Marşı ve Milli Şairimiz Mehmed Âkif Ersoy Uluslararası Sempozyumu, Türkiye: Ankara, 12 Mart 2023, s.92-96.

28. Sərdarova M.N. “Ortaq Türk dəyərlərinin öyrənilməsi: Heydər Əliyevdən İlham Əliyevə” // Hodja Akhmet Yassawi 7. International Congress on Scientific Research, Azərbaycan: Mingəçevir Dövlət Universiteti, 24-25 fevral 2023, s.103-107.

29. Sərdarova M.N. “Mustafa Kamal Atatürkün uşaqlarla bağlı milli idealları nümunə kimi” // Uluslararası 23 Nisan Milli Egemenlik Kongresi, Türkiye:Ankara, 23-24 Nisan 2023, s. 89-101

30. Sərdarova M.N. “Heydər Əliyev və Təhsil Şurası.” // VII Beynəlxalq Təhsil və Elmdə İnnovativ Texnologiyalar Konfransı. Bakı: ADPU. 12-13 may 2023, s. 61-67

31. Sərdarova M.N. “Qərbi Azərbaycan məsələsinə baxış: Heydər Əliyevdən İlham Əliyevə” // “Heydər Əliyev irsi və müasir Azərbaycanın inkişafının bəzi məsələləri” məqalələr toplusu. Bakı: ADPU, 2023. s.44-78.

Dissertasiyanın müdafiəsi 14 iyun 2024-cü il tarixdə saat 14.00-da ADPU-nun nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü.Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya işi və avtoreferatın elektron versiyaları ADPU- nun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 may 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir

.

Çapa imzalanıb: 08.05.2024
Kağızın formatı: $60×84^{1/16}$
Həcm: 47949
Tiraj:100